PARADIGMA, No.3, 2025, səh.57-69
https://doi.org/10.30546/30015.2025.3.032

# AİLƏ ZORAKILIĞINA MƏRUZ QALAN UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**G.E. Süleymanlı**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Govhar.Suleymanli@student.au.edu.az

**Xülasə**: Tədqiqatda ailənin insanın formalaşmasındakı rolu və cəmiyyət üçün əhəmiyyəti araşdırılır. Qeyd olunur ki, ailə hər bir fərdin şəxsiyyət kimi inkişafında və dünyagörüşünün formalaşmasında əsas rol oynayır. Həmçinin, ailənin sosial təcrübəni nəsillərə ötürən və davranış normalarını formalaşdıran bir qurum olduğu bildirilir. Aristotelin ailə ilə bağlı fikirlərinə də istinad edərək, mətn ailənin cəmiyyətin təməli olduğunu önə çəkir. Beləliklə, ailədə böyüyən uşaqlar gələcəkdə cəmiyyətdə daha uğurlu fərdlər olurlar.

**Açar sözlər**: Ailə, cəmiyyət, uşaq, ailə münasibətləri, fərd.

## Giriş

Cəmiyyətimizin normal inkişafını formallaşdırmaq üçün uşaqlara qarşı törədilən zorakılıq hərəkətləri onların gələcək həyatlarının inkişafına mane olan amillərdəndir. İlk öncə olaraq uşaq zorakılığı zamanı bunun hansı səbəblə yaranması, uşaqlara qarşı hansı neqativ və aqressiv davranışların göstərilməsini və nəticədə uşaqda yaranan travmanı müəyyən etmək vacibdir. Uşaq hüquqlarını pozan bütün hallar zorakılıq adlandırılır. Zorakılığın tərkibinə uşaq istismarını, uşaqlara qarşı laqeyd münasibətləri və şiddətin göstərilməsini, həmçinin onlarla pis rəftarın edilməsini aid etmək olar. Bəzən həmin zorakılıqlara isə sosial-iqtisadi çətinlikləri, ailə daxili konfliktləri, ailədə zorakılığın normal hal alması və s. göstərə bilərik. Hazırda həm ölkəmizdə, həm də digər ölkələrdə ailə-məişət zorakılığı hallarına rast gəlinir. Bu hallar isə əsasən göstərilir ki, qadınlara və uşaqlara qarşı ailədə məişət zəminində zorakılıq faktların müşahidə etdikdə, aydın olur ki, uşaqlar yetkinlik yaşına çatmadığına görə bu halların olması və bu hallarla bağlı isə hüquq-mühafizə orqanlarına, müvafiq dövlət orqanlarına müraciət etməməsi də həmin halların meydana gəlməsinin əsas göstəricilərindən biridir.

Zorakılıq dedikdə, uşaq sağlamlığına, onun həyatına, inkişafına və ləyaqətinə faktiki zərər vura bilən fiziki, emosional davranışın bütün formalarını əhatə edir.

Uşaqlara qarşı edilən zorakılığın aşağıdakı növlərini göstərə bilərik:

1) Fiziki zorakılıq;
2) Emosional zorakılıq;
3) Cinsi zorakılıq;
4) Uşaqlara etinasız zorakılıq;

**Fiziki zorakılıq-** Uşaqlara qarşı qəsdən vurulan zərbələr, hər hansı bir fiziki gücün tətbiq edilməsi fiziki zorakılıq hesab edilir. Hətta qeyd etmək olar ki, uşaqlara qarşı məcburi dərman preparatlarının və bəzi kiməyi maddələrin qəbul edilməsi, uşaqların bədənlərində müəyyən yandırma və ya yara izləri və s. kimi hallarına rast gəlinir. Araşdırma nəticələri göstərir ki, əsasən yanıq xəsarəti alan uşaqların 10% -i ailə daxili zorakılığa məruz qalmışdır. 18 yaşına çatmayan uşağa qarşı fiziki və psixi sağlamlığın ciddi pozulmasına, inkişafdan geriləməyə gətirib çıxaran qəsdən travma və zədələrin vurulmasıdır.

✓ Fiziki zorakılığa məruz qalmış yeniyetmələrin davranış xüsusiyyətlərinə aşağıdakıları göstərə bilərik:

- Evdən qaçmaq halları;
- Spirtli içkilərin və narkotik maddələrin istifadəsi;
- İntihar cəhdləri;
- Kriminal və cəmiyyətə zidd davranışlar;

**Cinsi zorakılıq**- Uşaqların razılığı olmadan digər şəxslər tərəfindən cinsi hərəkətlərə cəlb edilməsi nəzərdə tutulur. Həmin zaman isə uşaqlarda ətrafa qarşı aqressivlik və düşmənlik hissi yaranır. Yaşıdları və ətrafdakı şəxslərlə ünsiyyət qurmaqda çətinlik çəkirlər. Bu halda da uşaqlarda bədəndə müəyyən xəsarət halları aşkar edilir.

✓ Cinsi zorakılığa məruz qalmış yeniyetmələrin davranış xüsusiyyətləri:

- Depressiya və ya aqressiv davranışların həyata keçirilməsi;
- Özünü öldürmək cəhdləri;
- Pis vərdişlərə aludəçilik;
- Evdən qaçmaq;

**Emosional zorakılıq-** Uşaqların davranışlarında müəyyən dəyişikliklər və cəmiyyətə uyğunlaşa bilməmələri kimi problemlərin yaranması halları müşahidə olunur. Belə halların olması isə əsasən ailədə uşaqların tənqid olunması, onlara qarşı valideynləri tərəfindən alçaldıcı münasibətlərin göstərilməsi, bu hallarda isə uşaqlar psixoloji cəhətdən gərgin olurlar. Tez-tez evdən qaçmaq istəyirlər, başqaları ilə münasibətdə aqressiv rəftar edirlər.

✓ Psixoloji zorakılığa məruz qalmış yeniyetmənin xüsusiyyətləri:

- Nitqində əhəmiyyətli dərəcədə çatışmazlıqlar;
- Aqressivliyin artması, özünü məhvə aparan davranış;
- Tənhalıq hissi;
- Dostların olmaması;
- Psixosomatik xəstəliklər;

- Həmyaşıdlarla müqayisədə ümumi inkişafda geriləmə;

Belə halları isə ailə ilə əlaqələndirirlər. Yəni müəyyən edilir ki, valideynlər stress vəziyyətindədir, valideynlər zərərli vərdişlərdən əziyyət çəkir, uşağın valideynlərlə münasibətləri pis olduqda, valideynlər həddindən artıq məşğul olduqda psixoloji problemlər qaçınılmaz hal alır.

**Uşaqlara etinasız münasibət** - Valideynlər tərəfindən uşaqlara laqeyd davranıldıqda. Nümunə olaraq müəyyən edilir ki, qida rejimlərinə, təhsil məsələlərinə laqeyd yanaşdıqda bu hallar özünü göstərir. Daha bir nümunə müəyyən edilir ki, qəza nəticəsində zədə almış uşaqların xüsusi qayğıya ehtiyacı olur. Valideynləri tərəfindən həmin qayğı göstərilmədikdə uşaqlarda pis münasibətin formalaşması faktorları özünü göstərir. Aparılan araşdırmalar nəticəsində göstərilir ki, bəzən valideynlərin özlərinin uşaq yaşlarında bu cür davranışa məruz qalması onların gələcək həyatlarında öz övladlarına qarşı bu cür davranışı əks etdirməsinə gətirib çıxarır. Müxtəlif yaş dövrlərinə əsasən zorakılığa məruz qalmış uşaqlarda yaranan xüsusiyyətləri qeyd edə bilərik:

➢ Körpəlik- Uşaqlar göz əlaqəsi qurmaq istəmirlər, başqalarının çağırmasına reaksiya vermirlər, bu cür neqativ hallar uşaqların oyun prosesində özünü göstərir. Əşyalarla oynamaq istəmirlər. Bu dövrdə uşaqların düzgün şəkildə tibbi müayinə olunmaları daha yaxşıdır, əks halda düzgün yanaşmadıqda bu xəstəliyin kəskinləşməsi xroniki formaya çevirə bilər.

➢ Məktəbəqədər yaş dövrü- Valideynlər tərəfindən uşaqlara etinasız münasibət göstərildikdə, tibbi müayinəyə aparılmadıqda formalaşır. Bu uşaqlarda qorxu, nitq inkişafında geriləmə, öz fikrlərini izah etməkdə çətinlik çəkmək müşahidə olunur.

➢ Kiçik məktəbli dövrü- Uşaqlarda böyüklərə qarşı şübhə hissi yaranır. Ehtiyacları olduqda heç kimlə bölüşmək istəmirlər. Fikirlərini cəmləyə bilmirlər, müəllimləri tərəfindən verilən tapşırığı həll etməkdə çətinlik çəkirlər.

➢ Yeniyetməlik dövrü- yeniyetmələrdə davranış problemləri, depressiya müşahidə olunur. Yeni bir işə başlamaqdan qorxurlar, uğursuzluq əldə edəcəklərindən qorxurlar. Uşağın yaşadığı bütün böhran dövrlərindən ən çətini yeniyetməlik dövrüdür. Bu dövrdə uşağın bədənində, psixikasında ciddi dəyişikliklər olur.

Zorakılığa məruz qalmış uşaqlarla aparılan işlər zamanı müxtəlif sahə mütəxəssisləri birgə fəaliyyət göstərməlidirlər. Uşaqlarda aparılan tibbi müayinənin nəticələrinə xüsusi önəm verilir. İlkin olaraq söhbətlər aparılmalıdır. Aparılan söhbət nəticəsində uşaqlara özlərini rahat hiss edə biləcəyi, danışdığı insana qarşı inam yaradan bir mühit formalaşdırılmalıdır. Bu zaman uşaqlarla işləyən zaman müxtəlif terapiya metodları keçirmək olar. Adətən zorakılığa məruz

qalmış uşaqlarda qorxu, narahatlıq, ətrafdakı insanlara qarşı şübhə, depressiya, intihar fikirləri, ünsiyyət çətinlikləri özünü göstərir. Belə hallar daha çox problemli ailələrdə baş verir və belə ailələrin uşaqları asanlıqla insan alverinin qurbanına çevrilə bilər. Narkomaniyaya, alkoqolizmə cəlb oluna bilərlər. Bütün bu halları uşaqların hərəkətləri ilə də müşahidə etmək olar. Uşaqlarla aparılan reabilitasiya tədbirləri zamanı mütləq şəkildə təcili psixoloji yardım, psixo-pedaqoji yardım məsələlərinə xüsusi önəm verilməlidir. Zorakılığın halları qeydə alınan ailələr daim diqqət mərkəzində saxlanılır, müvafiq monitorinqlər keçirilir. Aidiyyatı dövlət qurumlarının səlahiyyətli nümayəndələrinin iştirakı ilə regionlarda və yerlərdə görüşlər keçirilir. İclaslar və dinləmələr, əhali arasında maarifləndirmə işləri aparılır. Uşaqların zorakılıq zamanı pozulmuş hüquqlarının müdafiəsi məqsədi ilə hüquqi işləmlər fəaliyyətə başlayır. Zorakılığa məruz qalmış uşaqlar üçün özəl sosial sığınacaqlara dövlət və kommersiya təşkilatları tərəfindən müəyyən dəstəyin göstərilməsi, uşaqların təhsillərinin davam etdirilməsi, yenidən həyata inteqrasiya olmaları üçün müəyyən tədbirlərin həyata keçirilməsi zəruridir. Zorakılıq qurbanına göstərilən psixoloji yardımın əsas məqsədi həmin travmanın uşaqların gələcək həyatına mənfi təsirin azaldılmasına yönəlmişdir.

Zorakılığa məruz qalmış uşağa psixoloji yardımın göstərilməsinə aşağıdakıları göstərə bilərik: müsbət "Mən" anlayışının, özünü qəbuletmə bacarığının formalaşdırılması, şəxsi ləyaqət hissinin yenidən yaradılması, mənfi təsir edən hadisələrin öyrənilməsi uşağın şəxsiyyətinin inkişafı və təkmilləşdirilməsi yolunda mühüm addımdır.Bunu da qeyd etməlik ki, sərbəst qərar qəbul etmək bacarıqlarının formallaşdırılması, öz həyatı üçün məsuliyyətli olmaq və qərar qəbul etmək hissinin yaradılması da vacibdir. Onlara sevgi göstərmək və sevgi ilə yanaşmaq lazımdır. Özlərini nə qədər güvəndə hiss etsələr bir o qədər öz problemlərini valideynləri ilə bölüşə bilərlər. Əsas məsuliyyət valideynlərin və məktəb müəllimlərinin üzərinə düşür. Bu mövzuda bir o qədər diqqətli yanaşmaq lazımdır ki, hər bir uşaq öz gələcəyinə inamla addım atsın.

## 1. Uşaq zorakılığı və ÜST-ün uşaq zorakılığında müddəaları

Zorakılıq anlayışına Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) aşağıdakı kimi tərif verir: zorakılıq – özünə, digər şəxsə, bir qrup insana, icmaya qarşı yönələn və nəticədə cismani zədələr, ölüm, psixoloji travma, inkişafın pozulması və ya digər formada zərər vuran(yaxud böyük ehtimalla güman olunan)həqiqi və ya hədə şəklində qəsdən edilən fiziki qüvvə və ya səlahiyyətin tətbiq edilməsidir.

Kobud rəftar anlayışına BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası aşağıdakı kimi tərif verir: kobud rəftar – fiziki və ya psixoloji zorakılığın, təhqirin, sui-istifadənin,

qayğısızlığın və ya etinasız münasibətin, istismarın, o cümlədən seksual sui-istifadənin hər cür formasıdır.

Uşaqlara qarşı zorakılıq – fiziki, psixoloji, iqtisadi, cinsi, sosial təcavüzün istifadəsi ilə uşağın konstitusiya və azadlıq hüquqlarının pozulmasıdır.

Valideynlər və digər insanlar tərəfindən uşaqlara qarşı edilən zorakılıq uşağın sağlamlığına, onun yaşamasına, inkişafına və ləyaqətinə bilavasitə zərər vura bilən fiziki və emosional davranışın bütün mənfi formalarını, cinsi zorakılığı, qayğısızlığı və etinasızlığı özündə cəmləşdirir.

ÜST-nin məlumatlarına görə [15] hər il 15 yaşadək 41000 uşaq öldürülməsi halına rast gəlinir. Uşaqlara qarşı zorakılığın nəticəsi olan ölüm hallarının bir çox hissəsi suda boğulma, yanıqlar, yıxılmalar hesabına yazıldığı üçün bu rəqəm problemin həqiqi miqyasını göstərmir.

Həmçinin ÜST-nin məlumatlarına görə:

Bütün böyük əhalinin 25%-i uşaq yaşlarında zorakılığa məruz qaldıqlarını qeyd edir. Hər 5 qadından biri və hər 13 kişidən biri uşaqlıq yaşlarında seksual zorakılığa məruz qaldıqlarını qeyd edirlər.

Ümumiyyətlə, uşaq hüquqlarını pozan bütün hallar zorakılıq adlandırılır. BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasına görə uşağın yaşamaq, normal inkişafı üçün zəruri həyat səviyyəsinə malik olmaq, öz baxışları və fikrini sərbəst ifadə etmək, fikir, vicdan və din azadlığı, sərbəst surətdə mədəni həyatda iştirak etmək, iqtisadi istismardan müdafiə olunmaq, təhsil almaq, lazımi məlumat əldə etmək, ədliyyə orqanlarına müraciət etmək, cinsi istismardan, suiistifadədən və etinasız münasibətlərdən müdafiə olunmaq hüquqları var. Uşaq hüquqlarının pozulmasına, o cümlədən zorakılığa görə valideynlər, onları əvəz edənlər, ya da digər böyüklər inzibati, cinayət, ailə və/və ya mülki hüquqlar əsasında həm mənəvi, həm də hüquqi baxımdan məsuliyyət daşıyırlar.

BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası dünya dövlətləri tərəfindən zorakılığa qarşı aşağıdakı tədbirlərin aparılmasını tövsiyə edir:

Hər bir uşağın yaşamaq hüququ var. Uşağın sağ qalması və sağlam inkişaf etməsi maksimal dərəcədə təmin edilməlidir (maddə 6).

Hər bir uşağın şəxsi həyatı olmasına hüququ var. Uşaq onun həyatına özbaşına və ya qanunsuz müdaxilədən, şərəf və nüfuzuna, ailəsinə və evinə qəsd edilmədən qorunmalıdır (maddə 16)

Hər bir uşağın səhiyyənin mükəmməl xidmətlərindən istifadə etmək hüququ var. Xəstəliklərə və doyunca yeməməyə qarşı mübarizə təşkil olunmalıdır və uşağın sağlam yaşaması üçün təmiz su, təmiz ətraf mühit təmin olunmalıdır (maddə 24)

Hər bir uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmağa hüququ var (maddə 27)

Uşaq cinsi istismarın bütün növlərindən qorunmalıdır (maddə 34).

Qanunu pozan hər bir uşaq kobud rəftarın bütün növlərindən müdafiə olunmalıdır, o, böyük insanlarla bir cəza çəkmə müəssisəsində yerləşdirilməkdən və ailə üzvləri ilə münasibətdən məhrum edilməkdən qorunmalıdır (maddə 37).

Kobud rəftar qurbanı olmuş hər bir uşağa özünə hörməti qaytarmaq üçün yardım göstərilməlidir (maddə 39)[1].

Azərbaycanda bütün məişət zorakılığı və ailədaxili cinayət hadisələrinin 40%-ni uşaqlara qarşı zorakılıq halları təşkil edir [2]. Valideynlər və digər tərbiyəçilər tərəfindən uşaqlara qarşı kobud rəftar və qayığsızlıq uşaq sağlamlığına, onun yaşamasına, inkişafına və ləyaqətinə faktiki zərər vura bilən pis fiziki yaxud emosional davranışın bütün formalarını, cinsi zorakılığı, qayğsızlığı və etinatsızlığı özündə cəmləşdirir.

Uşaqların inkişafında, şəxsiyyətinin formalaşmasında və ümumiyyətlə sağlam və xoşbəxt gələcəyində ailənin rolu danılmazdır. Çünki məhz ailə uşağın həmişə sevildiyi, güvəndiyi, kömək və dəstək yeridir. Bundan savayı, uşaq ailə daxilində insanı münasibətləri mənimsəyir və cəmiyyətin gələcək üzvü kimi formalaşır. Uşaqlıq illərində əldə etdiyi təcrübəni həyatı boyunca yadda saxlayır. Lakın, bir çoxları bu qayğıdan kənar qaldığlarından savayı, həmçinin ailə daxilində şiddətə və zorakılığa məruz qalırlar. Ailəiçi şiddət günümüzün ən qlobal problemlərindəndir. Bu problemin qadına təsirindən çox danışıldığı halda, zorakılığın əsas qurbanları – uşaqlar çox vaxt nədənsə kənarda qalırlar.

UNİCEF-in son məlumatına əsasən hər il dünyada 275 milyon uşaq ailəiçi şiddətə məruz qalır. . Heç kəsə sirr deyil ki ailədaxili şiddətin uşaqlarin irəlləyən yaşlarında, şəxsiyyət kimi formalaşmasında böyük təsiri var. Mütəxəsisslərin sözlərinə görə bu təsir bir çox hallarda uzunmüddətli emosional və psixoloji travmalara gətirib çıxarır.

Şiddət deyildikdə tək uşağın döyülməsi, təhqir olunması nəzərdə tutulmur. Bu termin ailə üzvləri arasında yaşanan zorakılıq və şiddət səhnəsinin şahidi olunması, təhqir və təhdidlərin eşidilməsini də əhatə edir.

Nəticədə, göstərilən şiddət uşaqlara qarşı yönəlməsə də, bundan ən çox zərər görən bir çox hallarda uşaqlardır. Şiddətə məruz qalan və ya şiddət göstərilən bir ailədə böyüyən uşaqlar,

sağlam mühitdə böyüyən usaqlara nisbətən daha aqressiv olur və böyüdükcə başqa insanlarla ünsiyyət qurmaqda çətinlik çəkirlər. Valideynlər usaqlara böyük təsir göstərirlər: imitasiya ilə, müəyyən mexanizmlər vasitəsi ilə usaqlar ana-atanın hərəkətlərini interiorizasiya edirlər. Buna sübut olaraq aparılan araşdırmalar nəticələr göstərir ki, şiddət və zorakılıq törədən insanların 40 faizi vaxtı ilə özləri şiddətə məruz qalanlardır.

Ailədaxili şiddət məktəb dövründə belə öz mənfi təsirini göstərir. Məişət zorakılığı özgüvənin aşağı olması, zəif konsentrasiya, aşağı enerji və zəif inkişaf etmiş ünsiyyət və danışma bacarıqları kimi problemlər yaşadır.

Ailəiçi şiddətin ən ağır fəsadları isə yetkinlik dövrünə təsadüf edir. Aqressivlik, tez hirslənmə, ani reaksiya bir çox hallarda valideyinlərlə münaqişəyə səbəb olur. Depressiya, tənhalıq, dostlarla əlaqə qura bilməmək sonda cəmiyətdən tam xaric olmasına gətirib çıxardır. Spirtli içki və ya narkotik asılılığı isə sonda intihara meyilliyi artırır. Əgər qız uşaq dövründə şiddətə məruz qalıbsa və ya anasının şiddətə məruz qalmasının şahidi olubsa, bu zorakılıq onun gənclik dövründə ailə qurmasına da öz mənfi təsirini göstərmiş olur. Beləliklə, ailədaxili şiddətin yaratdığı problemlər bir neçə nəsil özünü büruzə verə bilər.

Ümumiyyətlə, ailədaxili şiddətə məruz qalan uşaqlarda itaətsiz, lal davranışlar özünü göstərə bilər. Məktəbəqədər yaşlı uşaqlar narahat davranışlar sərgiləyə, qarabasmalar görə bilər. Onlar həmçinin, bu məişət zorakılığını öz oyunlarında canlandırarlar. Qeyd olunur ki, ailədaxili şiddətə şahid olan məktəb yaşlı uşaqların davranışında dəyişikliklər baş verir. Onlar tutarsız davranışlar sərgiləyirlər. Uşağın məktəbdəki performansında azalmalar baş verə bilər və ya uşaqda qeyri-müəyyən somatik baş, mədə ağrıları baş verə bilər. Məktəb yaşlı uşaqlar ailədə baş verən bu şiddətə görə məsuliyyət hiss etməyə başlaya bilərlər.

Ailədaxili şiddət baş verən evlərdə yaşayan uşaqlarda hiddət, utanc, xəyanət kimi hisslər özünü büruzə verə bilər. Bu hisslər məktəbdən yayınma, məktəbdən çıxma, narkotik və ya alkoqol istifadəsi kimi üsyankar davranışlarda təzahür edə bilər. Aparılan araşdırmalar nəticələr göstərir ki, analara qarşı olunan şiddət onları olduğu qədər, övladlarını da təhdid altında qoyur və onlarda travmaların yaranmasına səbəb olur. Şiddət baş verən ailələrdəki uşaqlarda psixopatoloji problemlərin yaranması riskinin normal ailələrə nisbətə 30-40 % çox olur. Məişət şiddətinə şahid olmağın uşaqlarda depressiya, təcavüz, hirs və narahatlıq üçün əhəmiyyətli bir xəbərdaredici olduğunu təsbit etmişdir. Uşaqlıqda məişət zorakılığına şahid olmaq həmin uşağın yetkin yaşda şiddət baş verən münasibətdə olma riskini artırır. Atalarının analarına qarşı şiddət göstərdiyini müşahidə edən oğlanların gələcək həyat yoldaşlarına qarşı şiddət göstərmə ehtimalı çoxdur.

Ailədaxili şiddətə şahid olan uşaqlarda aqressiv davranışlar, sosial səriştənin azalması, depressiya, qorxu, narahatlıq, yuxu pozğunluğu və öyrənmə problemləri kimi bir sıra mənfi hallar özünü büruzə verə bilər. Uşaqlarda ölüm qorxusu, valideyn itirmə qorxusu kimi məsələlərin təməlində də bu nüans dayanır. Ailədaxili şiddətə şahid olmaq uşaqlarda acizlik hisslərini aşılaya bilər və onlar dünyaya gözlənilməz, düşmən və təhdidçi kimi baxa bilərlər.

Araşdırmalar nəticəsində müəyyən oldu ki, bütün inkişaf dövrlərində ailəədaxili şiddətə şahidlik edən uşaqlar aqressiya və geri çəkilmə kimi davranışlar sərgiləyirlər, lakin onlar bunu fərqli şəkildə edir. Uşaqların ailədaxili şiddətə şahid olma təcrübələrini müəyyənləşdirərkən bir sıra amilləri nəzərə almaq da önəmlidir.




Şəkil 1. Yaş qrupuna görə zorakılığın növləri

## 2. Uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması və reabilitasiyası

Ailədaxili şiddətə məruz qalmış uşaqların cəmiyyətə reinteqrasiyası üçün atılan addımlardan ən başlıcası maarifləndirmə və erkən müdaxilədir. Maarifləndirmə zorakılıq hallarının qarşısının alınması ilkin və mühüm mərhələdir. Burada əsas məqsəd zorakılıq haqqında bilik səviyyəsini artırmaq, riskləri tanıtmaq və cəmiyyətin məsuliyyət hissini gücləndirməkdir.

Erkən müdaxilə, zorakılıq hadisəsi baş vermədən əvvəl riskləri müəyyənləşdirərək müdaxilə etməyə yönəlmiş addımlardır. Bu yanaşma, uşağın təhlükəsizliyini təmin etməklə yanaşı, travmanın dərinləşməsinin qarşısını alır [3].

Uşaqlara qarşı zorakılıq fərdi, yaxın əlaqə, kollektiv və sosial səviyyələrdə səbəbləri olan çoxtərəfli problemdir, buna görə də o, eyni vaxtda bir neçə müxtəlif səviyyələrdə qarşılaşdırılmalıdır. Bu baxımdan sosial – ekoloji model ikili məqsədə malikdir bu modeldəki hər bir səviyyə həm risklər, həm də imkanların birlikdə mövcud olduğu ölçünü təqdim edir.

Uşaqlara qarşı zorakılıq məsələsi bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

• Təhlükəsiz, dayanıqlı və qayğı göstərən ailə mühitlərini yaratmaq və zorakılıq riski daşıyan ailələr üçün xüsusi kömək və dəstəyi təmin etmək;

• Fiziki dəyişikliklər vasitəsilə təhlükəli mühitləri dəyişmək;

• Zorakılıq təhlükəsini azaltmaq üçün ictimai mühitlərdə (məs. Məktəblər, gənclərin toplaşdığı yerlər) risk faktorlarını azaltmaq;

• Münasibət və əlaqələrdə, evdə, məktəbdə, iş yerində gender bərabərsizliyinə müraciət etmək;

• Zorakılıqdan istifadəni dəstəkləyən mədəni münasibət və təcrübələri dəyişmək;

• Hüquqi bazaların uşaqlara qarşı zorakılığın bütün formalarını qadağan etdiyini və gənclərin spirtli içki və odlu silahlar kimi zərərli məhsulları əldə etmək imkanını məhdudlaşdırdığını təmin etmək; [4].

• Zorakılıq ilə təsirlənən uşaqlar üçün keyfiyyət üzrə cavab tədbirləri xidmətlərini əldə etmək imkanını təmin etmək;

• Zorakılığa töhfə verən mədəni, sosial və iqtisadi bərabərsizlikləri azaltmaq, sərvət boşluğunu bağlamaq və mallar, xidmətlər və imkanlardan bərabər istifadəni təmin etmək;

• Uşaqlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsində rol oynayan çoxsaylı sektorların fəaliyyətlərini əlaqələndirmək;

Hazırda uşaqlara qarşı kobud rəftarın profilaktikasının üç səviyyəsi müəyyən edilir:

1. İlkin profilaktika: bütün əhali üçün əlçatan olan müxtəlif xidmətlərin cəlb edilməsi.

2. İkinci dərəcəli profilaktika: zorakılıq baş verməzdən əvvəl yüksək risk qruplarını və aparılacaq tədbirləri müəyyən edən xüsusi tibbi və sosial xidmətlərin cəlb edilməsi.

3. Üçüncü dərəcəli profilaktika: uşaqlara lazımi qayğı göstərilməyən və ya uşaqlara qarşı zorakılıq faktları məlum olan sosial baxımdan uğurlu olmayan ailələrlə məşğul olacaq xüsusi tibbi və sosial xidmətlərin yaradılması.




Şəkil 2. Uşaqlara qarşı zorakılıq hallarının potensial səhiyyə nəticələri

Zorakılığa məruz qalmış, eləcə də insan alverinin qurbanı olmuş uşaqların reabilitasiyası və reinteqrasiyası üçün respublikada dövlət sektoruna, eləcə də qeyri-hökumət təşkilatlarına məxsus 14 müəssisə fəaliyyət göstərir. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilə biləcək cinayətlərin, inzibati xətaların, eləcə də uşaqlara qarşı baş verən hüquq pozmalarının qarşısının alınması sahəsində aidiyyəti dövlət qurumları, qeyri-hökumət təşkilatları tərəfindən kompleks tədbirlər görülür, uzunmüddətli proqramlar qəbul edilir. Uşaqların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2020-ci il tarixli sərəncamları ilə“Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”və“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət planı”təsdiqlənərək qüvvəyə minib [5].

**Nəticə**

Yuxarıda göstərilən məlumatlara əsaslanaraq, göstərmək olar ki, tarix boyu qadınlar zorakılıqla ən çox üzləşən tərəf olub. Sağlam olmayan bir qadın isə sağlam nəsil yerləşdirə bilməz. Uşaqlar ailədə necə mühit görürsə, gələcəkdə də onu tətbiq edir. Bu səbəbdən də, ailədə zorakılıq görən uşaqlar böyüyəndə eyni davranışları təkrarlaya bilər. Uşaq zorakılıqlarının qarşısının alınması və bu hallara məruz qalan uşaqlarla söhbətlərin aparılması vacibdir. Fiziki

şiddət nəticələrdə isə müşahidə etmək olur ki, bədən xəsarətlərini, uşaqların böyüməsində və ləngiməsində müəyyən dəyişikliklərə yol açır. Bədən xəsarətlərinə müəyyən edilir ki, yaralar, sınıqlar və digər sağlamlıq problemləri uşaqlardakı davranış pozuntularına aqresiyaya gətirib çıxarır. Psixoloji söhbətlərin aparılmasının əsas məqsədi isə uşağın duyğularını, düşüncələrini anlamaqdır. Travmatik yaşantılarını üzə çıxarmaq və həmin travmalarla üzləşmələri, özlərini inkişaf etdirmələri onların gələcək həyatlarında uğur qazanmalarına səbəb olur.. Söhbət zamanı uşaq özünü təhlükəsiz hiss etməlidir. Sadə və aydın dildə danışmaq lazımdır. Zorakılığın növlərindən asılı olaraq müayinə metodları seçilir və həmin şəxslərə köməkliklər edilir. Həmin metodlara isə nümunə kimi rəsm analizini, nağıl terapiyasını, oyun terapiyası və rollu oyunları göstərə bilərik. Sonda isə uşaqlara psixoloji söhbət zamanı "nə olub?" sualını vermək kifayət deyildir. Daha da empatik yanaşmaq, düzgün suallar vermək və uşağın daxili aləminə körpü qurmaq lazımdır. Əsas məsələ olaraq uşaqlara psixoloji dəstək göstərilirməlidir. Psixoloji məsləhətləşmələr aparılmalıdır. Həmin məsləhətləşmənin əsas metoduna uyğun olaraq müsahibəni göstərə bilərik. Bu uşaqlarda emosional, sosial və intellektual sahələrdə pozuntular yaranır. Adətən uşaqlarda emosional pozuntular, özünə inamsızlıq, aqressiv davranışlar, ünsiyyət quran zaman müəyyən çətinliklər, təhsil sahəsində müəyyən çətinliklər, özlərinə və ətrafdakı insanlara qarşı güvənsizlik hissi, müəyyən yuxu problemlərinə və s gətirib çıxarır. Zorakılıq uzunmüddətli və qısamüddətli ola bilər. Uzunmüddətli olduqda gələcəkdə ciddi psixi problemlərə gətirə bilər. Tədqiqat nəticəsi nəticələr göstərir ki, ailə daxilində sağlam münasibətin formalaşdırılması, zorakılığın qarşısının alınmasına və psixoloji reabilitasiya xidmətlərinin gücləndirilməsi və həyata keçirilməsi vacib bir prosesdir. Uşaqların psixoloji psixi sağlamlığının qorunması üçün yalnız ailə deyil, ailə ilə birlikdə məktəbdə, cəmiyyətdə birgə şəkildə məsuliyyət daşımalıdır. Bu baxımdan birgə əməkdaşlığa pedaqoq, psixoloq və sosial işçi birgə olaraq proqram hazırlayır və tətbiq edir. Eyni zamanda, valideynlərlə maarifləndirmə işlərinin aparılması daha müsbət nəticə verə bilər. Bəzən valideynlər uşaqları cəzalandırmaqla və döyməklə çıxış yolu tapırlar. Bu isə uşaqlara mənfi təsir göstərir. Hətta bir sıra alimlərin, yazarların fikirləri olmuşdur. Nümunə olaraq göstərə bilərik: "Hər bir uşaq dahi bir rəssam kimidir. Çətinlik isə ondadır ki, uşaqlıq dövründən çıxandan sonra da rəssam kimi qala bilsin". –(Pablo Picasso). Hər bir uşaq bir gələcəkdir. Onların sağlam gələcəkləri üçün hər kəs əlindən gələni etməlidir. Uşaqları və valideynlərini maarifləndirməklə uğurlu gələcəyə addım atmaq lazımdır. Düzgün metodlardan istifadə edərək düzgün istiqamətləndirmə həyata keçirə bilərik. Çünki hər metod hər bir uşaqa fərqli köməklik və təsir göstərir. Son olaraq isə

vurğulamaq olar ki, Ümumilli lider Heydər Əliyevin dediyi kimi "Uşaqlar bizim gələciyimizdir" fikri ilə məqaləmi sonlandırıram.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
2. Ailədaxili şiddətə məruz qalan şəxlərdə özgüvən və aqressiya səviyyələrinin müqayisəli təhlili, Ə. M. Azər, Bakı 2021.
3. Skuse, D. Bruce, H. Dowdney L. and Mrazen, D. Child psychology and psychiatry. Wiley-Blackwell. UK. 2011.
4. Krug, E. Dahlberg, J. Mercy, A. Zwi, R. Lozano World report on violence and health. Geneva: 11. World Health Organization; 2002.
5. Məişət zorakılığında zərər çəkmiş yetkinlik yaşına çatmış şəxslər üçün xüsusiləşdirilmiş tibbi-psixoloji yardımın göstərilməsinə dair fərdi fəaliyyət, C. Məmmədov, t. f. d. ,G. Həsənova, İ. Abbasova, R. Məmmədova, S. Hənifiyeva, N. Müslümzadə, Bakı 2013, səh 35.
6. Kazımov, R. Uşaq psixologiyası, Bakı 2012.
7. Əliyeva, S. Psixoloji xidmət və psixodiaqnostika, Bakı 2015.
8. Əliyev, Ş. məişət zorakılıqları, Problemlər və səbəblər.
9. İsmayılova, Ş. Həsənova, G. Babazadə, S. Balayeva, A. Ağayeva. K. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hərəkətlərinin qarşısının alınması. Metodik vəsait. Bakı: 2017.
10. Uşaqlar arasında zorakılığın profilaktikası və qarşısının alınması. Metodik tövsiyələr. Simferopol, 2010.
11. UNFPA: Health Sector Response to Gender-based Violence. Case Studies of the Asia Pacific Region, 2010.
12. Uşaqlara qarşı zorakılığa son qoyulması üzrə yeddi starategiya. Child Poot 2020
13. https://www.who.int/news-room/fact-sheets/detail/child-maltreatment

# PSYCHOLOGICAL CHARACTERISTICS OF CHILDREN EXPOSED TO DOMESTIC VIOLENCE

**G.E. Suleymanli**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** The article discusses the analysis of domestic violence and the psychological characteristics of children exposed to such violence. The family is considered one of the most important factors in the formation and development of each personality. The most important among the values is the family. Each member of society, in addition to social status, ethnicity, property and economic situation, has such characteristics as marital status from the moment of birth to the end of his life. In the formation of an individual personality, the family directly combines individual and collective beginnings, thereby acting as a source of the formation of social ideas and behavior. The family forms the child's worldview, creates the socio-cultural core of his morality, spiritual world and strives for the development of his future identity. As one of the important elements of historical traditions, it creates stereotypes of consciousness, ideas about behavior and rules of action in the new generation, passes social experience from generation to generation. It passes on history and cultural heritage from generation to generation. Regarding family problems, one of the ancient Greek scholars Aristotle expressed the following opinion: "The family is the first natural form of human coexistence, which has remained unchanged throughout history". Based on this idea of Aristotle, I can say that the family is very important for the formation of society. Each family is a small community, and each member of this community has its own duties. It is precisely in the family that children who develop and grow up are more successful in collective labor relations and behavioral criteria within.

**Keywords:** Family, society, child, family relations, individual.